# PEYVƏNDİN İSTİFADƏ QAYDALARI

## Pfizer/Biontech BNT162B2

### PEYVƏNDİN DONUNUN AÇILMASI





**1** **Peyvəndin donunu açın.**
Soyuducuda (+2°C +8°C) və ya otaq temperaturunda (≤+30°C) peyvəndin donunu açın. Açılmamış flakonlar soyuducuda 1 aya, otaq temperaturunda isə 2 saata qədər saxlanıla bilər.

**2** **Flakonun temperaturunun otaq temperaturuna çatmasını gözləyin.**

**3** **Flakonu 10 dəfə ehmalca başı aşağı çevirin.**
**Flakonu çalxalamaq olmaz!**
**Əgər flakonu çalxalamısınızsa, onu istifadə etməyin!**

**4** **Peyvəndin rənginə fikir verin.**
Donu açılmış peyvənd ağ və ya ağtəhər rəngdə, qeyri-şəffaf hissəciklərdən ibarət ola bilər.

### PEYVƏNDİN HƏLL EDİLMƏSİ





**5** **Peyvəndi həll edin.**
Peyvənd flakonunun tıxacını və həlledicinin ampul başlığını antiseptik tamponla silin. **21G** (və ya daha nazik) iynə və **2 - 5 ml-lik** şprislə peyvənd flakonuna **1.8 ml 0,9%-li natrium xlorid** məhlulu əlavə edin.

**6** **Flakondakı təzyiqi tənzimləyin.**
İynəni çıxarmadan flakondan şprisə **1.8 ml** hava çəkin.

**7** **Flakonu 10 dəfə ehmalca başı aşağı çevirin.**
**Flakonu çalxalamaq olmaz!** Peyvəndin rəngi ağtəhər olacaqdır. Əgər peyvənd rəngsiz olarsa və ya içində bərk hissəciklər müşahidə edilərsə, onu istifadə etməyin.

**8** **Flakonunun üzərində həll edilmə tarixi və saatını qeyd edin.**
Həll edilmiş peyvəndi +2°C - +30°C-də saxlanılmaqla 6 saat ərzində istifadə edin.
**Flakonu günəş altına qoymaq və yenidən dondurmaq olmaz!**

### PEYVƏNDİN VURULMASI





**9** **Peyvəndi şprisə çəkin.**
Peyvənd flakonunun tıxacını antiseptik tamponla silin və **23G** (və ya daha nazik) iynə və **0,3 - 1 ml-lik** şprislə **0.3 ml** peyvənd məhlulu yığın.
Flakondakı qalıq peyvənd miqdarı **0.3 ml-dən** azdırsa, flakonu atın. Bir dozanın yığılması üçün müxtəlif flakonlardakı məhlullardan istifadə etmək olmaz!

**10** **Peyvəndi deltayabənzər əzələyə (bazunun yuxarı 1/3 hissəsi) inyeksiya yolu ilə vurun.**

**11** **Pasiyenti müşahidə edin.**
**30 dəqiqə:** əvvəllər peyvəndə və ya inyeksiya yolu ilə yeridilən dərmanlara allergik və ya hər hansı səbəbdən anafilaktik reaksiyası olmuş şəxsləri;
**15 dəqiqə:** digər şəxsləri

Proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ
TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi
World Health Organization
Azerbaijan